

HƏSƏN BAYRAMOV
*Pedaqogika üzrə elmlər doktoru*

# QƏLƏBƏNİN MÜZƏFFƏR AKKORDLARI

**Məşhur "HÖKMDAR" əsərində belə bir deyim var: "Hökmdar doğru tarixi şəraitdə, doğru zamanda doğru strateji və taktiki reallıqlara istinadən doğru qərarı vermək qətiyyətinə malik tarixi simadır!" Bu fikri II Qarabağ savaşını, daha doğrusu, Vətən müharibəsini uğurla başa çatdıraraq çox böyük güclərlə "AZƏRBAYCAN DAVASI" adlı milli mücadiləni uğurla yeni mərhələyə daşıyan Azərbaycan Respublikasının Prezidenti - Ali Baş komandan İlham Əliyevə qeydsiz-şərtsiz şamil etmək olar.**

***Gözün aydın olsun, Vətən!***
***Sən artıq Qalibsən!***

"Qarabağ bizimdir, Qarabağ Azərbaycandır"! Bu sözlər milli birliyimizin ifadəsi olaraq son günlərin başlıca şüarına çevrilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin vəsiyyətinə sadiq qalaraq Dağlıq Qarabağı düşmən ünsürlərdən təmizləyib Vətən müharibəsini uğurla başa çatdırmaqla yeni tarix yazan şanlı Azərbaycan Ordusu möcüzələr yaratdı və müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük cəsarəti, mərdliyi və dönməzliyi sayəsində xalqımızı əvəzsiz utancdan qurtasması ilə "əsrin müqaviləsidən əsrin qələbəsinə" aparan milli-tarixi missiyanı qətiyyətlə başa çatdırdı.

Qarabağ savaşı - Vətən müharibəsi bir daha göstərdi ki, türkün türkdən başqa dostu yoxdur. Minsk üçlüyü Minsk kiçiyinə çevrilərək illərdir ölkəmizi oyalamaqla, "bizi barmağına dolamaqla" məşğul idi. Haqq səsimizi görməzdən gələrək erməni quldurlarını başımıza çıxarmışdı. Dözdük, səbr etdik, amma əyilmədik. Öncə sosial-iqtisadi islahatlarla ölkəmizi dirçəltdik, idarəetmə sistemini modernləşdirik, milli təhlükəsiz sferasını, o cümlədən Ordu quruculuğunun mobilləşdirdik, bir çox beynəlxalq miqyaslı sosial-iqtisadi və mədəni-humanitar layihələrlə ölkənin nüfuzunu qaldırdıq. Hər şeyi təmin etməklə müqəddəs məqsədə hazırlaşdıq. Şükürlər olsun ki, bu anı dəqiq müəyyənləşdirməklə ümumxalq səfərbərliyinə arxalanaraq düşmən üzərinə yürüdük. Az qala qara bəxtimizə çevrilmiş Qarabağımız yeni ağ günlərimizin meydəcisinə çevirdik. Ən müasir silahlarla ən mobil Ordu ilə ən sivil Vətən müharibəsi apardıq və qalib gəldik. Şükürlər olsun bu günləri bizlərə bəxş edən Ulu tanrıya, cəsarətli Prezidentə və Müzəffər Ali Baş Komandana, nəhayət şanlı Milli Orduya və dəmir yumruğa çevrilmiş xalqımıza!

Qələbənin şərtləndirən bir neçə amili xüsusilə qeyd etmək isyəyirəm.

Ən son, ən müasir "beşinci nəsil" silahlar ad-

landırılan döyüş texnologiyalarına malik olan Ordumuz dünyanın ən inkişaf etmiş ölkələrinin Silahlı Qüvvələri ilə müqayisə ediləcək Müdafiə qabiliyyəti nümayiş etdirdi.

Xalqımızı zəngin döyüş təcrübəsinə malik ehtiyatda olan əsgər və zabitlərimizin könüllü şəkildə Orduya yazılma kampaniyasının vüsəti döyüş bölgəsinin daha çevik mobil hərbi birləşmələrlə komplektləşdirilməsi qələbəmizə təkan verən mühüm amil oldu.

Silahlı qüvvələrimizin yüksək döyüş hazırlığı, peşəkar hərbi təlim səviyyəsi ilə bərabər milli-vətənpərvərlik ruhu da qələbəmizin rəhni idi. Bu, Şuşanın azad edilməsi zamanı çətin coğrafi şəraitdə göstərilən müzəffər qələbə ruhunun nümayişi olaraq Vətən müharibəsinin şanlı səhifəsi idi. Xüsusilə, döyüş bölgəsində düşmən tərəfinin xəstələri ilə, əsgərləri ilə, mülki əhalisi ilə davranışları baxımından da döyüşçülərimiz yüksək mənəvi səviyyə göstərdilər.

Arxa cəbhədə xalqımızın milli birliyinin nümayişi də əsgərlərimizin yüksək döyüş ruhunu təmin edilməsinə güclü təsir göstərdi.

Ali Baş Komandana göstərilən ümumxalq dəstəyi, onun daha qətiyyətli və əzmkar qərarlarına rəğmən xalqımızın yüksək milli həmrəylik və vətəndaş yekdiliyi nümayiş etdirməsi Vətən müharibəsində xalqla iqtidar birliyinin əzəmətini göstərdi.

Ölkə prezidenti və Ali Baş Komandan olaraq İlham Əliyevin televiziya ilə xalqa müraciətləri təkcə siyasi publisistikanın klassik nümunəsi deyildi, daha çox ailədən gələn milli-vətənpərvərlik ruhunun coşqusu idi, nəhayət, onu bir sərkərdə olaraq yüksək hərbi peşəkarlığına istinad edən ağsaqqallıq məharətini də göstərdi.

Onun çıxışları nəinki hərbi-səfərbərlik ruhu aşılayırdı, həm də xalqın və ordunun milli ruhunu silkələyir, döyüş əzmini və orduya dəstək vüsətini təmin etmək baxımından, nəhayət, döyüşün başlamasından bitməsinədək atılan addımların beynəlxlaq hüquq və sivil müharibə qaydaları ilə bağlayan tamamlayıcı çıxışlar olaraq da tarixə düşmüşdür.

Bir sözlə, ikinci Qarabağ savaşı - Vətən müharibəsi kimi tarixə düşmüş 44 günlük müharibənin dərsləri illərlə öyrəniləcək, tariximizin şanlı səhifəsi olaraq təqdir ediləcək, ölkəmizi İlham Əliyevin simasında yeni-yeni uğurlara aparacaqdır.

Sözümün sonunda cənab prezidentimizə və qalib Ali Baş Komandana xitabən deyirəm:

Azərbaycanın gücünü, qeyrətini dünyaya nümayiş etdirdiyiniz üçün, Sizə qəlbimizin ən dərin guşələrindən gələn təşəkkürümüzü bildirirəm. Xalqımız həmişəki kimi Sizə inanır və bilirik ki, məhz Sizin birbaşa qətiyyətli rəhbərliyinizlə igidlərimizin canı-qanı bahasına düşmən



tapdağından qurtulmuş torpaqlarımızda həyat yenidən, bərpa olunacaq.

Müzəffər Ali Baş Komandanım!

Qəlbi hər an Vətənlə döyünən, şagirdlərinə daim vətənpərvərlik sevgisi aşılayan bir ziyalının sonsuz təşəkkürlərini qəbul edin. Qarabağı Azərbaycana qovuşdurmaqla nəinki şanlı tariximizdə şərəfli iz qoydunuz, həmçinin uşaqdan böyüyə, cavandan qocaya hər kəsin qəlbində taxt qurdunuz. Bununla da siz Azərbaycan xalqının gələcəyini nurlu sabahlara daşımış oldunuz.

Ölkəmizin ərazi bütövlüyü, istiqlaliyyəti və azadlığı uğrunda apardığınız mübarizədə dəmir yumruq sahibi kimi Sizə böyük uğurlar arzulayırıq. Fəxr edirik ki, azərbaycanlıyıq!

Siz Azərbaycan xalqının torpaq həsrətinə son qoydunuz, xalqımızı göylərə ucaltdınız. Hörmətli atanız Heydər Əliyevin tutduğu siyasi yolun layiqli davamçısı kimi Siz öz vəzifənizi ləyaqətlə yerinə yetirdiniz. Odur ki, bizim hər birimizin qəlbində Sizə böyük məhəbbət, hörmət və inam var.

Sizin rəhbərliyiniz və şanlı Ordumuzun qəhrəmanlığı sayəsində xalqımıza böyük zəfər bəxş etdiniz. Sizlərə çox minnətdarıq. Allah Sizi və qəhrəman Ordumuzu qorusun!

Allahdan Vətən uğrunda canından keçən şəhidlərimizə rəhmət diləyir. Onları dünyaya gətirən anaların qarşısında baş əyirik. Onların ruhu qarşısında, tökülən hər damla qanı qarşısında səcdədəyik.

Ölkəmizin ən ağır, ən müşkül problemləri Sizin liderliyinizlə bir-bir həll olunur və bütün bunlar bir Azərbaycan vətəndaşı olaraq, hər birimizi sevindirir. İllərlə hər birimizin ürək yarasına çevrilmiş Qarabağ, şükürlər olsun ki, artıq azadlığına qovuşub. Bütün bunlar Sizin komandanlığınız altında Ordumuzun və xalqımızın, Sizin ifadə ilə desək, "bir yumruq kimi birliyi"nin nəticəsidir. Biz ölkəmizə kənar siyasi və digər təzyiqlərin olduğunu da gözəl bilirik. İnşallah, tezliklə o çətinliklərin öhdəsindən gələcəyinizə inanırıq. Azərbaycanımız daha güclü, daha firavan, daha möhtəşəm bir ölkəyə çevriləcək.

Mənim bir təklifim var:

Dağüstü parkda keçmiş bolşevik C.M.Kirovun heykəlinin yerində "Müstəqilliyin Zəfər Tağı" ucadılsın. Burada qələbəni gözləyən şəhid ata-anası, özünü qayadan atan ismətli qızlarımız, Gəncədəki dağıntılardan salamat çıxaraq ata-anasını axtaran üstü qanlı körpələrimiz, nəhayət, döyüşdə şəhid olan və qələbə bayrağını Şuşaya sancan əsgərlərimizin simvolik barelyeflərinin cəmləşdiyi heykəl ekspozisiya iri qaya üzərində ovularaq orada ucaldılsın. Bir də orada əlləri ilə qartal tutan iki şəxsiyyətin - rəhmətlik Ulu öndər və Sizin heykəllərininiz həmin "Zəfər tağı"nı bəzəsin! İnşallah

